

Slavyanların Kozaq adlandırdıqları Kazaq türklərinin Ukraynalıların etnogenezinin formalaşmasında önəmli rolu olmuşdur.

Ukrayna ərazisinə səyahət etmiş bir çox xarici səyyahlar Ukraynanın kazakların ölkəsi olduğunu yazırlar.

Bir çox mənbələrdə kozaqların mənşəi GÇyornıe kolobuki“ adlanan türk tayfalarına bağlanır.

Rasovskinin yazdığına görə Çyornıe Kolobuk adlandırılan hərbi ittifaqlar Bizans və Polşanın təcavüzünə qarşı yönəlmişdi

Səlnamələrdə tork adlandırılan quzların Kiyev knyazlığı dövlətində iştirakı o qədər önəmli rola malik idi ki, İpatyevo səlnaməsində ölkənin adı "Rouskaya zemlya və Çyornıe kolobuki" şəklində dəfələrlə təkrar olunur.Mənası "Rous torpağı və qara kolpaklar" demək olan bu ifadə artıq XII əsrdə Kiyev knyazlığı dövlətinin siyasi-inzibati ərazi qruluşunun iki tərkibdən ibarət olub konfederativ əsasda idarə olunduğunu sübut edir.

Qarakalpaklar oğuz-peçenek boy birliyinə aid edilir.Slavyanlar qarakalpaklar digər beynəlxalq sənədlərdə Ukrayna bəzən Çerkas və ya Kazak adlandırılırdı.

***Çerkes/çərkəz etnonimi əsas etibarı ilə orta əsrlərdə türklərin quz/uz, tork, qarabörk (çyornıy kolobuk) boylarını əhatə edən peçeneq-oğuz tayfalarının ümumi adı kimi istifadə olunurdu.***

***Qıpçaq dillərinin Kazax-noqay dialektində ç-s-ş əvəzlənməsi qaydası mövcuddur və buna uyğun olaraq kazax dilində çərkəz adı şerkeş şəklində ifadə olunur.***

***Adıqların çərkəz adlandırmaları tarixi bir yalnışlıqdır.Adıqlar Kuban ərazisinə köçüb gəldikdən sonra burda yaşayan çərkəz türkləri ilə eyni ərazidə yaşadıqların üçün çərkəz adlanmışlar.***

***Çerkes/Çerkas etnoniminin kökü bulqar türklərinin As boyuna bağlıdır və Çerik-as anlamı daşıyır və "As çeriki" yəni As qoşunu deməkdir.Bir çox müəlliflər kimi Q.Y.Klaprot da Çerkəzləri tatar-türk mənşəli hesab edir və adın kökünü türk dillərində qoşin,hərbi birlik anlamı daşıyan "çeri" sözünə bağlayır.***

knyaz Mamay-Qlinskilərin də gerbi olmuşdur.(ŞennikovA.A.Knəjestva potomkov knəza Mamaə.L.1981.)

Ukraynalıların məhşur Qopak kazak rəqsi ilə birlikdə Kobız musiqi aləti Mamayın və kazaq-qaydamakların sevimli atributlarıdır..

Ukrayna kazaklarının milli döyüş rəqsi olan Qopakın kökü də türkcə "Hop-Hopa" sözünə bağlıdır və kazakların rəqs zamanı"qop,qop" təntənəli nidasını ifadə edir.Bu "hop" nidası türk xalqlarının rəqs zamanı coşğusunu ifadə edird.

Kazaklara döyüş və mübarizə ruhu aşılayan bu rəqsin əsl adı "Kozak" olmuşdur,lakin II Yekaterina Kazak adını qadağan etdikdən sonra kazaklar bu rəqsin adını onun ifası zamanı ifadə etdikləri "Hop!Hopa!" hayqırtısını ifadə edən sözlə əvəz etmişlər.

**Ələsgər Siyablı**

**(əvvəli ötən sayımızda)**

# Ukrayna -Türklərin qədim Vətəni

***XI əsrdə Kiyev mitropoliti olmuş İlarion Kiyev dövlətini 'Kiyev xaqanlığı" adlandırır.***

***Bir sıra rus salnamələrində rus knyazları haqqında 'bizim ölkənin böyük xaqanı", 'bizim xaqan Vladimir","bizim mömin xaqan Yaroslavl"kimi epitetlər istifadə olunmaqdadır.Bütün bu faktlar Rus xaqanlığının Xəzər xaqanına tabe vassal bir xaqanlıq olduğunu göstərir,Xəzər xaqanlığının siyasi sistemində bir neçə belə kiçik xaqanlıqlar mövcud idi.Xaqan titulu XI əsrin axırlarından etibarən knyaz titulu ilə əvəz olunmağa başladı ki bu titul da türklərə məxsus idi.***

Rus dövlətinin sonrakı dövründə xaqan titulu yerinə hökmdarlar yenə də türklərə məxsus Çar/Tzar hakimiyyət titulundan istifadə edirdilər.Çar sözünün "sezar" titulu ilə əlaqələndirmək yalnış yozumdur. Çar sözü türklərdə hakimiyyət titulu geniş yayılaraq qədim dövrlərdən etibarən Çur Teqin, Beq Çur,İnanç Çur,İşbara Bilqe Çur şəklində istifadə edilirdi.Çur sözü Kür sözünün dialekt forması olub türk dilində anlamı cəsur,qorxmaz,igid anlamı daşıyır. .(DTS, L.1969,Səh.157,328)

İbn Xaldun da rusların türk olduqlarını,xristian dininə etiqad etdiklərini və Roma ilə qonşuluqda yaşadıqlarını yazır.

XIII əsr ərəb müəllifi Əbulfida rusların türk mənşəli olduqlarını və onlardan şərqdə eyni mənşəyə malik olan quzlarla sərhədə malik olduqlarını yazır.

Slavyan krill əlifbasını yaradacıları olan Krill və Mefodi qardaşlarının onları həyatına həsr olunmuş "Jitye Krilla" (Krillin həyatı) adlı kilsə-bioqrafik əsərdə Dunay ətrafından Salonikə mühacirət etmiş xristianlığı bizanslılardan qəbul etmiş bulqar türk ailəsində doğulduqları yazılmışdır.Bolqar alimləri də onların bulqar olduqlarını yazırlar.

Slavyan provoslav kilsə dili Bulqar çarının himayəsinə sığınan Kril və Mefodinin xristianlığı qəbul etmiş şagirdləri bulqar türkləri tərəfindən xristian dini kitablarını Makedoniyada sklavon-slavyan dilinə tərcümə etmələri nəticəsində yaranmış və burdan digər slavyan ərazilərinə,o cümlədən Kiyev ərazisinə yayılmışdır.

Kiyev rus dövləti xristianlığı qəbul etdikdən sonra slavyan dili pravoslav kilsəsinin dini dili əsasında formalaşmışdır.Hakimiyyəti türklərdən zəbt edən slavyan ruslar türkləri xristianlaşdıraraq tədricən xristian kilsənin slavyan dilini türklərə qəbul etdirmişlər.

quzların Ukrayna tarixindəki rolları çox böyükdür

Xəzər xaqanlığı dövründə Volqa və Don arasında məskunlaşan quzlar peçeneqləri sıxışdırdılar və onlar köçüb Dnepr sahillərində yerləşdilər və burdakı macarları Dunay sahillərinə köçməyə məcbur etdilər.

***Xəzər xaqanlığının süqutundan sonra Volqanın aşağı axarı əraziləri peçeneq,oğuz və polovets-kumanların hakimiyyəti altında idi.***

***Slavyan səlnamələrində Tork,Bizans mənbələrində Uz adlandırılan Oğuzların Ukrayna ərazisində məskunlaşması IX əsrin əvvəllərindən başlayır.Xəzərlər peçeneqlərə qarşı uzlarla ittifaq bağladılar.Quzlar peçeneqləri təqib edərək onları məskunlaşmış olduqları Dneprətrafı ərazilərdən sıxışdıraraq özləri həmin ərazilərdə yerləşdilər.***

***Peçeneqlər 8 ordadan ibarət idilər.Onların dördü Dneprin sol sahilində,dördü də sağ sahilində məskunlaşmışdılar.***

Kiyev dövlətinin yarandığı IX srdən başlayaraq müxtəlif türk tayfalarının bu dövlətlə konfederatlar yaratmaları səlnamələrdə çox saylı nümunələrlə öz əksini tapmışdır.Vahid dövlət tərkibində türklərlə yaradılan bu konfederatlar şəklindəki ları "çyornıe kolobuki" adlandırırlar ki "kolobuk" sözü qalpak sözünün təhrif olunmuş şəklidir.Qarakalpakların digər bir adı da "qara börklü"dür.Azərbaycanda qarakalpak və qarabörklülər qarapapax adı ilə məlumdurlar. Karakalpaqların şəcərə əfsanəsinə görə onlar 1600 il öncə Azərbaycanın Təbriz və Urmiyə gölü ətrafından gəlmişlər. Qrakalpakların Urmiyə ətrafındakı qohum tayfaları onlar kimi eyni adı daşıyan Azərbaycan türklərinin Qarapapaq boyudur.Qaraqalpakların Qarapapaklarla eyni mənşəyə malik olmaları hər iki boyun tərkibində Baharlı adlı qəbilənin mövcud olması ilə sübut olunur.

Ukraynada qədim dövrlərdən etibarən türklərin mövcudluğunu sübut edən ən önəmli amillər çərkəz və kazaklardır.Hər iki etnik və ya siyasi-hərbi təşəkkül Ukrayna xalqının etnogenesində önəmli rol oynamışdır.

Beləliklə Ukrayna xalqının etnogenezində önəmli rol oyanayan ən önəmli tayfalar olan "çyornı kolobuklar" azərbaycanın qarapapax türkləridir.

Ukrayna adı ilk öncə kazak adlandırılan quzların məskunlaşdıqları Kanev və Çerkas şəhərləri və ətraf ərazilərin yerləşdiyi Orta Dneprətrafı ərazilərə aid edilirdi.

Rus çarlarının qramotalarında və di-

Fikrimizə görə Çerkez və Kasoq adlarının eyni ərazidə eyni etnik qrupa aid edilməsi bu adın eyni etimoloji məna kəsb etdiyini sübut edir.Biz Çerikez/Çerikas adının kökündə çeri-kuz sözünün durduğunu və anlamının kuz/quz çerisi ,quzlara məxsus qoşun,hərbi dəstə anlamı daşıdığı fikrindəyik.Kasoq/Kosaq/Kasax etnoniminin kökündə Kuz/Kas türk boy birliyi adı və xalq,əhali,tayfa anlamı daşıyan oq/ox sözü durur.

Qəhrəman Kazak Mamay Ukrayna xalqının azadlıq sevər, mərdlik və ölümsüzlük ruhunu təmsil edir.

Ukraynada qaydamak hərəkatı polşa və rus imperiya ağalığına qarşı mübarizə və Ukrayna xalqının müstəqilliyi uğrunda azadlıq hərəkatı idi.Ukrayna xalqı rus imperiya əsarəti altına düşdükdən sonra Kazak Mamay və ya Qaydamak Mamay Ukrayna xalqının itirilmiş azadlığının, şöhrətinin və milli iradəsinin nastaljik obrazına çevrilmişdir.Mamay azadlıqsevər Ukrayna kazaklarının ümumiləşdrilmiş obrazıdır.Kozak və Çerkes türk mənşəli adlar olduğu kimi Ukraynanın milli azadlığı hərəkatının silahlı dəstəsi olan Qaydamaklar adı da türkcə olub haydamak/haydatmaq hücum etmək,qovmak anlamı daşıyır.(Qaydamaki.Sovremennıy tolğkovıy slovarğ.Bolğşaə SovetskaəGnsiklopediə.2019)

Türk oğuz boyunun kiyat qəbiləsinə mənsub olan Krım bəylərbəyi Mamay Qızıl orda xanı və sərkərdəsinin adıdır.

Ukraynanın gerbi olan Trizubets həmçinin Ukraynanın tarixində önəmli rol oynamış kiyat qəbiləsinə mənsub

Kazak geyimlərinin əsas atributlarından olan qara şiş papaqlar türklərə məxsus olması haqqında fikir mövcuddur və bütövlükdə slavyanlara papax qoyma ənənəsi türklərdən keçmişdir."Çyornıe kolobuki" adlanan oğuz türkləri ucu şiş qara xəz papax qoyurdular ki türklərə xas bu ənənəvi baş geyimi "kuçma" adı ilə kazakların və bütünlüklə şərqi slavyanlar olan Ukraynalıların,rusların və bolqarların ənənəvi geyim atributlarına çevrilmişdir.

***Ukraynanın aristokratik təbəqəsini təşkil edən şlyaxta içərisində Qlinskilər, Dolqolatovlar (Tuqlat),***

***Domontlar (Tümənlilər), Polovsı-Rojinovckilər (Kumanlar),Temürüklər,Pyatiqorskilər (Beştaular) türk mənşəli knyazlar idilər.***

***Ukraynada Kobızçı ,Kozari,Kotuz,Kumaniv,Peçeneq,Polovets,Sabar,Torki,Uzi,Bayrak,Batur,Orda kimi çoxsaylı türk mənşəli toponimlər mövcuddur.(Oleksandr Çernovolenko.Törkskietoponimı vne stepnoy zone.livljurnal.com.)***

Ukraynanın cənubunun köçəri türkləri bu regionun tarixinin önəmli tərkib hissəsini təşkil edir.Ukrayna tarixi eposlarında Qaydamak Mamay,Mixail Kozarin,Soqmat və s.kimi çoxsaylı türk soyadlı qəhrəmanların adları əks olunmuşdur.

Kazaklar Zaparojye seçini əsl adı ilə "Kazakskiy Koş" adlandırırdılar.Türkcə onun anlamı "kazak qoşunu və ya birlyi" deməkdir.Litva və Polşa dövlətinin bu ərazini öz hakimiyyəti altına almasından öncə Kazak hərbi-inzibati ərazisi Kazak Atamanlığı və ya Atamanşina (Kazaçiy Ataman) adlanırdı.Litva knyazlığı dövründən bu ad ataman adının alman dilində tərcüməsi olan başçı anlamında Qetman (Hauptman) adlandı və Atamanlıq termini Qetmanlıq (Qetmanşina) termini ilə əvəz olundu.

***Tarixi ədəbiyyatda Tork və ya quzların Ukrayna ərazisində tarixin sonrakı dövrlərində yoxa çıxmalarının səbəbləri onların artıq vahid kazak etnik birliyi tərkibində birləşmələri və ümumi Kozak adı ilə meydana çıxmalarındadır.***

***Türk xalqlarının ukrayna mədəniyyətinə güclü təsiri olduğu kimi onların fiziki görünüşlərində də dərin iz buraxmışdır.P.Toloçkonun da qeyd etdiyi kimi Ukrayna mahnılarında tərənnüm olunan "çorni bravı,kari oçi" qaraqaşlı,qəhvəyi gözlü ifadəsi türk tayfalarının Ukrayna etnosunun formalaşmasındakı oynadıqları rolu təcəssüm etdirir.***

***Ukrayna qədimdən türklərin vətəni olmuş və VIII əsrdən sonra bu əraziyə gəlmiş slavyanların yerli Oqur, avar, quz, tork, qarapapaq, peçenek, polovets və qıpçak türk tayfaları ilə qaynayıb qarışması nəticəsində yeni slavyandilli Ukrayna etnosu meydana gəlmişdir.Ölkənin Ukrayna/Oqurina adının kökünü də türk Oqur etnonimi təşkil edir.***

***Ukraynanın cənubunun köçəri türkləri bu regionun tarixinin önəmli tərkib hissəsini təşkil edir. Ukrayna tarixi eposlarında Qaydamak Mamay,Mixail Kozarin,Soqmat və s.kimi çoxsaylı türk soyadlı qəhrəmanların adları əks olunmuşdur. Kazaklar Zaparojye seçini əsl adı ilə "Kazakskiy Koş" adlandırırdılar. Türkcə onun anlamı "kazak qoşunu və ya birlyi" deməkdir. Litva və Polşa dövlətinin bu ərazini öz hakimiyyəti altına almasından öncə Kazak hərbi-inzibati ərazisi Kazak Atamanlığı və ya Atamanşina (Kazaçiy Ataman) adlanırdı. Litva knyazlığı dövründən bu ad ataman adının alman dilində tərcüməsi olan başçı anlamında Qetman (Hauptman) adlandı və Atamanlıq termini Qetmanlıq (Qetmanşina) termini ilə əvəz olundu.***



**"Turan-drevneyşaya istoriya mira" kitabından**